**Azərbaycan Qızıl Aypara Cəmiyyəti**

# 2023

# İLLİK HESABAT



**Əlaqə:**
**(+994 12) 493 84 81**
**E-poçt ünvanı:**
**info@redcrescent.org.az**
**Ünvan:**
**AZ 1022, S. Vurğun küç. 112,**
**Bakı, Azərbaycan**

# MÜNDƏRİCAT


| | |
|---|---|
| Ön Söz | 1 |
| Fundamental Prinsiplər | 4 |
| Haqqımızda | 5 |
| Əsas Fəaliyyətlər | 6 |
| Regional Mərkəzlər | 7 |
| Sağlamlıq və Qayğı | 8 |
| Fövqəladə Hallar | 17 |
| Axtarış Xidməti | 18 |
| Miqrasiya | 19 |
| Silahlara Qarşı Mübarizə | 20 |
| Gənclər və Könüllülər | 21 |
| Fövqəladə Mobil Könüllü Dəstələr | 24 |
| Humanitar Yardım | 27 |
| Beynəlxalq Əlaqələr | 29 |
| Milli Cəmiyyətin İnkişafı | 35 |

# Ön Söz



Əziz dostlar,

Sizləri Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri və nailiyyətləri barədə qismən məlumatlandırmaq istərdim. Cəmiyyətimiz son illərdə geniş və müstəqil sahələrdə həyata keçirdiyi layihələrlə mövcud fəaliyyətlərini işıqlandırmaqda və təbliğ etməkdə müstəsna nailiyyətlər əldə etmişdir. Bildiyiniz kimi AzQAC-ın fəaliyyəti çox şaxəlidir və bunları uğurla həyata keçirən struktur bölmələrimiz mövcuddur.

Yola saldığımız 2023-cü il nə qədər çətin, məşəqqətli olsa da, humanitar fəaliyyətlərimizdə, Qızıl Aypara Cəmiyyətinin dövlət qurumları ilə imzaladığı əməkdaşlıq müqavilələri çərçivəsində, həyata keçirilən bütün fəaliyyətlərin məhsuldar olduğunu qeyd edə bilərik. AzQAC-ın 2020-2025-ci il Strateji İnkişaf Planına uyğun olaraq həyata keçirilən fəaliyyətlərimiz barədə qısa məlumat verərək qeyd etmək istərdim ki, Milli Cəmiyyət üzərinə düşən əsas vəzifələrin öhdəsindən müvəffəqiyyətlə gəlmişdir.

İl ərzində Beynəlxalq Humanitar Hərəkatının aparıcı tərkib hissələri olan Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (Beynəlxalq Federasiya) və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan Qızıl Aypara Cəmiyyətinə göstərdiyi dəstəyini xüsusi olaraq qeyd etmək istəyirəm.

Son bir ildə, Nəğd Pul yardımı layihəsi həyata keçirilmişdir. Bu layihənin həyata keçirilməsi ilə Cəmiyyət çox uğurlu və effektiv nəticələr əldə etmişdir. Layihə fəaliyyət istiqaməti üzrə seçilmiş 4 bölgədə- İmişli, İsmayıllı, Lənkəran və Füzuli rayonlarında baş tutmuş və hər ailəyə 300 AZN olmaqla ümumilikdə 378 ailəyə nağd pul yardımı paylanılmışdır. Bu fəaliyyətlə, təşkilatın beynəlxalq əməkdaşlıq çərçivəsində, yerli icra sturukturları ilə və regional miqyasda əldə etdiyi uğurlarını özündə əks etdirir.

2023-cü ildə Sağlamlıq və Qayğı sahəsində Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən həyata keçirilən 336 sayda tədbirlər, 108 sayda keçirilən İY (İnsan Yönümlü) tədbirləri və 1512 benefisiarlara sahib olma, AzQAC-ın sağlamlıq və qayğı sahəsində geniş və aktiv fəaliyyətlərinin əks olunan göstəriçiləridir.

Qeyd ediləcək digər əlamətdar hadisələrdən biri də İcmaların Cəlb Olunması və Cavabdehlik, əsasən xarici tərəfdaşlarla fəal əməkdaşlıqdan başlayır. Əlavə olaraq, 2023-cü ildə 5000 ABŞ dolları məbləğində Microsoft şirkəti tərəfindən edilən ianə, yerli şirkətlərlə tərəfdaşlıq, yeni istifadəyə verilən yardımet elektron platforma üzərindən Türkiyədəki zəlzələyə 426.000 AZN məbləğində toplanan yardım, təşkilatın fandreyzinq və resursların səfərbər edilməsi sahəsindəki uğurlarımızın nəticəsi kimi hesab etmək olar.

Xüsusilə qeyd etmək istərdim ki, Cəmiyyət ölkədə yaşayan hər bir insana dinindən, dilindən, irqindən, siyasi fikirlərindən asılı olmayaraq real ehtiyac yarandığı zaman hər bir icmaya yardım etməyə hazır olduğunu göstərmişdir. Bunun bariz nümunəsi olaraq, avqust ayının 29-dan sentyabr ayının 28-nə kimi Qarabağda yaşayan sakinlərin ərzaq ehtiyaclarının qarşılanması məqsədilə AzQAC 40 ton ərzaq yardımı iki TIR tipli yük avtomobili və Rusiyadan göndərilən bir TIR yük avtomobili ərzaq və qeyri-ərzaqla Ağdam-Xankəndi yolu ilə təyinatı üzrə çatdırılmışdır.

Ötən ilin əlamətdar hadisələrindən biri də Cenevrə şəhərində BQXQACF-nın növbədənkənar prezident seçkiləri keçirilmiş və AzQAC öz nümayəndə heyəti ilə orada iştirak etmişdir. Yeri gəlmişkən, seçkilərdə qələbə qazanan Amerika Qızıl Xaç Cəmiyyətinin nümayəndəsi Keyt Forbsə bu məsuliyyətli və şərəfli işində uğurlar arzulamaq istərdim. Həmçinin, keçirilən görüşlər zamanı Milli Cəmiyyətlər arasında mövcud olan qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıq imkanlarının genişləndirilməsinin vacibliyi müzakirə edilmişdir.

Bildiyiniz kimi, Qarabağ İqtisadi Zonasında AzQAC-nin humanitar fəaliyyətlərinin bərpası və “Qayıdış” proqramı çərçivəsindəki fəaliyyətlər, regionlarda aparılan yenidən quruculuq və bərpa işlərinin bir tərkib hissəsidir. Cəmiyyət hər zaman olduğu kimi, qarşıya qoyulan hədəflər istiqamətində fəaliyyətini bundan sonra da davam etdirəcək, öz şərəfli missiyasının öhdəsindən gələcəkdir.

Fürsətdən istifadə edərək, Milli Cəmiyyətin humanitar fəaliyyətlərinin 2023-cü ildə qiymətləndirilməsinin həyata keçirilməsində dəstək olmuş bütün insanlara, xüsusilə əsl fədakarlıq, qəhrəmanlıq nümayiş etdirən könüllülərimizə, işçi heyətimizə, yerli və beynəlxalq təşkilatlara öz minnətdarlığımı bildirirəm. Əminəm ki, humanitar fəaliyyətimiz davamlı olacaq, yerli və beynəlxalq səviyyədə dəstəklənəcəkdir.



Dr. Novruz Aslanov
*Prezident,* Azərbaycan Qızıl Aypara Cəmiyyəti
*Deputat,* Azərbaycan Respublikası Milli Məclisi

# Fundamental PRİNSİPLƏR

## Humanizm

Ayrı-seçkilik etmədən döyüş meydanlarında yaralılara yardım göstərmək zərurətindən yaranmış Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı istər Beynəlxalq, istərsə də milli səviyyədə hər hansı bir şəraitdə insan iztirablarının qarşısını almağa və onları yüngülləşdirməyə çalışır.

## Qərəzsizlik

Hərəkat heç kəsə dini, irqi, milli xüsusiyyələri, sinfi mənsubiyyəti, siyasi əqidəsi və sosial mövqeyinə görə fərq qoymur. O, insanların düşdükləri əzab-əziyyətin ölçüsünə görə yardım edir. O, ilk növbədə ən ağır bəlalara düçar olanların köməyinə tələsir.

## Neytrallıq

Hərəkat hər kəsin ona olan inamını qoruyub saxlamaq məqsədilə, hərbi münaqişələrdə heç bir tərəfi müdafiə etməyərək düşmənçiliyə qarışmır, siyasi, irqi, dini və ideoloji mübahisələrdə bitərəf mövqe nümayiş etdirir.

## Müstəqillik

Hərəkat müstəqildir. Öz insansevərlik fəaliyyətində mövcud hakimiyyətə yardımçı olub, ölkəsində hakim olan qanunlara tabe olmaqla Milli Cəmiyyətlər öz muxtariyyətlərini qoruyub saxlayırlar ki, bu da onlara Qızıl Xaç və Qızıl Aypara Hərəkatının prinsipləri ilə işləmək imkanı verir.

## Könüllülük

Hərəkat heç bir maraq güdməyən könüllü yardım müəssisəsidir.

## Universallıq

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı ümumbəşəri, universal bir qurumdur ki, bu qurumda bütün Cəmiyyətin bərabər hüquqları var və onlar bir-birilərinə kömək etməyə borcludular.

## Vahidlik

Bir ölkədə yalnız bir Qızıl Xaç və ya Qızıl Aypara Cəmiyyəti ola bilər. Onun qapıları hamının üzünə açıqdır və öz insansevərlik fəaliyyətini ölkənin bütün ərazisində həyata keçirir.

# Haqqımızda

Azərbaycan Qızıl Aypara Cəmiyyəti Respublikada fəaliyyət göstərən və dövlət qanunu ilə rolu müəyyən olunmuş ən böyük humanitar təşkilatdır. Azərbaycan Qızıl Aypara Cəmiyyəti Bakı şəhərində yerləşən Baş Qərargahdan, Gənclər komitəsindən, 8 Regional Mərkəzdən (Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Sabirabad, Lənkəran, Qarabağ), Naxçıvan Muxtar Respublikası Komitəsindən, 92 rayon, şəhər və sahə bölmələrindən ibarətdir. Cəmiyyət dünyanın ən nəhəng humanitar qurumu olan Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının ayrılmaz üzvüdür. Mövqeyinə görə Hərəkatın üç tərkib hissəsindən biridir. O həm hökümət, həm qeyri-hökümət, həm də digər Qırmızı Xaç və Qızıl Aypara Milli Cəmiyyətləri ilə qarşılıqlı əməkdaşlıq edir.

Missiyamız Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək ehtiyaclı insanlara yardım etməkdir.



# Əsas Fəaliyyətlər

Sağlamlıq və Qayğı

Beynəlxalq Əlaqələr

Fandreyzinq

Humanitar Yardım

Fövqəladə Hallar

Axtarış

Regional Mərkəzlər

İnformasiya Yayımı

Gənclər və Könüllülər

Miqrasiya



# Regional Mərkəzlər

**Tədbirlər**

Bakı, Gəncə və İmişli rayonlarında ümumi 27 rayon bölməsinin iştirakı ilə hökümət və qeyri-hökümət orqanları ilə sıx əməkdaşlıq aparılması ilə bağlı görüşlər keçirilmişdir.

Sentyabr ayında yeni tədris ilinin açılması ilə əlaqədar işğaldan azad olunmuş Kəlbəcər rayonunda məktəblilər yeni məktəbli çantaları ilə təmin olunmuşdur.

Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədilə respublika üzrə icmalar arasında pandemiya, yoluxucu xəstəliklər, epidemiya, kimyəvi və bioloji silahların vurduğu zərər, baş verə biləcək nüvə silahlarının tətbiqi və atom-nüvə stansiyalarında sızma zamanı görüləcək tədbirlər haqqında maariflənmə işlərinin aparılması təşkil olunmuşdur.

**Təşkilati məsələlər**

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının köməkliyi ilə rayon bölmələri üzvlük biletləri ilə təmin olunmuşdur.

Baş qərargahın işğaldan azad edilmiş Qarabağ regional mərkəzinin əhatə etdiyi 7 rayon bölmələrinin ilk təşkilatlarının fəaliyyətlərinin təkmilləşdirilməsi və bununla daha effektiv və keyfiyyətli xidmətlərin göstərilməsi işləri gücləndirilmişdir.

Aprel və iyul aylarında Mingəçevir və Sabirabad Regional Mərkəzlərində zona müşavirəsi keçirilmişdir. Müşavirədə koordinator, rayon və şəhər bölmə sədrləri iştirak etmişlər. Əsas mövzu üzvlərin sayının artırılması, bölmələrə yardım üçün müraciətlərin operativ cavablandırılması, yerli səviyyədə humanitar aksiyaların keçirilməsi olmuşdur.

# Sağlamlıq və Qayğı

2023-cu il yanvar ayı ərzində **Avropa İttifaqının "Təbii və texnogen xarakterli fəlakətlərin qarşısının alınması, hazırlıq və cavab tədbirləri" üzrə Şərq proqramının 3-cü fazası** ("PPRD East3") çərçivəsində çox saylı tədbir və görüşlər həyata keçirildi. Görüşlərin əsas gündəliyini Fövqəladə hallara hazırlıq, xüsusən uzaq kəndlərdə səhiyyə risklərin azadılması, fəlakətlərin qarşısının alınmasında hazırlıq mərhələləri, könüllülərin fəlakətə qarşı cavab tədbirləri, erkən xəbərdarlıq üzrə maarifləndirmə işlərinin aparılması kimi mövzuları əhatə edirdi.

2023 fevral və mart ayları ərzində **Kommersiya İlk Yardım** (Commercial First Aid) proqramı ilə bağlı maraqlı tərəflərlə görüşlər keçirildi. Hazırlanmış Kommersiya İlk Yardım proqramının inkişafına dair marketinq, müştəri araşdırması və digər texniki tapşırıqlar müzakirə edildi. Görüşlərin yekununda İş Yerində İlk Yardım pilot proqramı üçün Sumqayıt şəhəri pilot ərazi olaraq müəyyənləşdirildi. Kommersiya İlk Yardım (İY) proqramı ilə bağlı görüşlər may və iyun aylarında davam etdirildi. Həmin tarixlərdə Kommersiya İY Programı ilə bağlı yerli Marketing imkanlarının qiymətləndirilməsi həyata keçirildi və Beynəlxalq Qızıl Xaç Komitəsinə (BQXK) təqdim olundu. 25 may tarixində İlk Yardım İcmalı Azərbaycan Qızıl Aypara Cəmiyyətində şöbə rəhbərlərinə, 9 iyun tarixində rayon sədrlərinə, 12-13 iyun tarixlərində isə Bakı Regional Mərkəzində 12 rayon bölmələrinin sədrlərinə və könüllülərə təqdim olundu.



İlk Yardım təliminə müraciət proseduru hazırlandı və 15-17 iyun tarixlərində Bakı CELT Məktəbində iştirakçı sayı 20 tələbə olmaqla Kommersiya İY təlimi keçirildi. İşçi qrupu ilə aparılan müzakirələr nəticəsində İY sertifikatlarının yararlılıq müddəti 3 il təyin olundu.

31 oktyabr – 1 noyabr tarixində baş tutan **Beynəlxalq Ekspertlər Qrupunun iclası** Qazaxıstanda Almatı şəhərində keçirildi. İlk yardım üzrə Beynəlxalq Ekspertlər qrupu Beynəlxalq Qızıl Xaç Komitəsi və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının sıx əməkdaşlığı və dəstəyi ilə Şərqi Avropa, Mərkəzi Asiya və Cənubi Qafqazın Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri adından fəaliyyət göstərir. İclasda 11 ölkədən nümayəndə iştirak etmişdir. Görüş zamanı əsas istiqamətlər və fəaliyyətlərin integrasiyası ilə yanaşı təcrübələrin bölüşülməsi, programların unifikasiyası, təlimlərin aparılması, iştirakçıların daha sıx əlaqəsi və digər məsələlər müzakirə edilmişdir. Bu il Azərbaycan Qızıl Aypara Cəmiyyətindən də ilk dəfə olaraq nümayəndə həmin iclasda iştirak etmiş, öz təcrübələrini qrup üzvlərilə təqdimat vasitəsilə bölüşmüşdür.



## Təlim və Sessiyalar

Müxtəlif icmalarda “Vərəmlə Mübarizəyə qarşı Maarifləndirmə günləri” ilə bağlı sessiyalar həyata keçirilidi.

4-5 aprel “Vərəmsiz gələcəyə doğru” və “Sağlam Həyat”, 17-21 iyul tarixlərində isə “İrəli” ictimai birliklərində təlimlər keçirildi.

İyul ayı ərzində Tibb universitetində qan donorlarının cəlb olunması ilə bağlı maarifləndirmə sessiyaları, Bakı və Sumqayıt şəhəri daxil olmaqla Sanitariya və Gigiyena təlimləri keçirildi.

10, 16 və 23 oktyabr tarixlərində Tibb Universitetində İlk Yardımın əsasları, infeksiyaya nəzarətlə bağlı təlimlər keçirildi.

Noyabr ayında İlk Yardımın prioritet istiqamətləri və Antimikrobial Müqavimət Maarifləndirmə həftəsinə həsr olunmuş seminar keçirildi.

30 noyabr tarixində miqrantlara Antibiotiklərlə bağlı maarifləndirmə təlimi həyata keçirildi.

Pirallahı Rayon İcra Hakimiyyəti və Qızıl Aypara Cəmiyyətinin Pirallahı rayon bölməsinin birgə təşkilatçılığı ilə Pirallahı rayon Gənclər Mərkəzində Ümumdünya Antimikrobiyal Maarifləndirmə mövzusunda tədbir keçirildi. Tədbir 5 dekabr tarixində baş tutdu.



# İlk Yardım

2023-cü ilin fevral ayından başlayaraq 7 rayon bölməsində (Bərdə, Füzuli, Cəbrayıl, Tovuz, Qazax, Ağdam, Tərtər) ilk yardım təlimlərində iştirak etməyən və eləcə də yeni könüllülər üçün 2 günlük Əsas İlk Yardım Təlim proqramının hazırlanması məqsədilə sözügedən bölmələrdə təlimlər həyata keçirilməyə başlandı. Təlimi Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) İlk Yardım əməkdaşı həyata keçirdi. Könüllüləri həvəsləndirmək və potensiallarını ortaya çıxartmaq məqsədilə eyni zamanda köməkçi təlimçilər kimi hər bölmədə təlimçi olmaq istəyən könüllülər cəlb olundu.

2 günlük təlimdə nəzəri və praktiki bilik və bacarıqlar könüllülərə öyrədilir və sonda onlara iştirakçı sertifikatı verilir, aktiv könüllülər növbəti mərhələyə keçirlər.

Bölmələrdə baş tutmuş İlk Yardım təlimlərində qonaq qismində BQXK Bərdə alt nümayəndə heyəti, Türk Qızıl Aypara Cəmiyyətinin Azərbaycandakı nümayəndəsi iştirak ediblər.

11-12 dekabr tarixlərində Xocavənd rayon bölmə könüllülərinə isə ilk yardım üzrə bilik və bacarıqlarını təkmilləşdirmək məqsədi ilə AzQAC-da Əsas İlk Yardım təlimi keçirildi. Təlimin əsas təlimçisi AzQAC-ın İlk Yardım əməkdaşı olub. Təlimin məqsədi könüllülərin davamlılığını gücləndirməklə və icma daxilində İlk Yardım məlumatlılığını artırmaqla həm gündəlik vəziyyətlərdə, həm də fövqəladə hallarda yaranan şəraitlə mübarizə aparmaq üçün icmaların bacarıqlarını artırmaqdan ibarət olmuşdur.

**Əhatə olunan bölmələr**




**Bölmələr üzrə iştirakçı sayı**





2-4 oktyabr 2023-ci il tarixində Beynəlxalq Qızıl Xaç Komkitəsi (BQXK) və Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC ) əməkdaşları üçün Təməl İlk Yardım haqqında təlim kursu təşkil olundu. Təlimin əsas məqsədi AzQAC əməkdaşlarının, xüsusən də yeni gələn əməkdaşların ilk yardım bacarıqlarını təkmilləşdirməsi eləcədə onların bilik və bacarıqlarını artırmaq olmuşdur. Təlimdə 15 əməkdaş iştirak etmişdir. Təlim 3 gün davam etdi. Proqrama uyğun olaraq hər gün nəzəri və praktiki məşğələlər olub. Təlimin sonuncu günü iştirakçılara sertifikat təqdim olundu.






Bölmələrdə hər ay müxtəlif ictimai yerlərdə, insanların daha sıx olduğu məkanlarda İlk Yardım Postları qurulur. Postların məqsədi həm insanları ilk yardım ilə tanış etmək, onları maarifləndirmək, həm də insanlar arasında ilk yardıma maraq yaradaraq rayon bölmələrinə könüllü cəlb etməkdir. Postlar sayəsində insanlar arasında zərərçəkən şəxsə yanaşma tamamilə dəyişib, bu postlarda könüllülərimizin aşıladığı bilik və bacarıqlar sayəsində baş verib.

## İlk Yardım Postları

### Ağdam

Çullu kənd orta məktəbi, Səfərli qəs 91 saylı, Baharlı qəs və Təzəkənd qəs tam orta məktəbləri

### Bərdə

Mirzalibəyli kənd 4 saylı, Xanərəb kənd, Dəymədağlı kənd, Şirvanlı kənd orta məktəbləri

### Cəbrayıl

14 saylı Cocuq Mərcanlı, R.Xudiyev adına Minbaşlı kənd, Cəbrayıl kənd, Dəmşalaq kənd orta məktəbləri

### Füzuli

Əhmədbəyli kənd, Əhmdallar kənd, 39 saylı, Zobucuq qəs 33 saylı, Kərpic Evlər ümumi təhsil orta məktəbləri

### Qazax

**Çaylı kənd 1 saylı, Bala çaylı, Əskipara kənd orta məktəbləri**

### Sumqayıt

6 saylı orta məktəb, Kimyaçılar Mədəniyyət sarayı, AzQAC ofisi, Sumqayıt Gənclər evi

### Tərtər

Borsunlu kənd, Sarov kənd, Buruc kənd orta məktəbləri və AzQAC ofisi

### Tovuz

Əhmədabad kənd, A.Puşkin adına, H.Vəliyev adına, M.Əliyev adına tam orta məktəblərdə və Dövlət-Sosial İqtisadiyyat koleci

# Psixososial Dəstək

Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) əməkdaşlığı ilə fevral ayında AzQAC-ın Tərtər və Ağdam rayon bölmələrinin könüllülərinə psixososial dəstək haqqında maarifləndirmə sessiyaları keçirmək üçün lazımi bilik və bacarıqları ötürmək məqsədilə təlim keçirilmişdir.
BQXK-nin əməkdaşlığı ilə Silahlı münaqişədən təsirlənmiş bölgələrdə yaşayan uşaqlara psixososial dəstəyin göstərilməsi məqsədi ilə AzQAC könüllüləri tərəfindən məktəblərdə **"Mənim Haqqımda Kitab"** vəsaitinin əsasında məşğələlərin keçirilməsi üçün mart-noyabr aylarını əhatə edən tarixlərdə çoxsaylı təlimlər, məşğələlər həyata keçirilmişdir. Həyata keçirilən təlimlərdə Ağdam, Bərdə, Füzuli, Tərtər, Tovuz rayon bölmələrinin könüllüləri uşaqlara "Mənim Haqqımda Kitab" vəsaitindən istifadə edərək qrup şəklində fokuslanmış psixososial dəstək göstərmək üçün lazımi bilik və bacarıqlara yiyələnmişdir. Könüllülər tərəfindən keçirilən məşğələlər məktəb direktorları və müəllimlər, uşaqlar və onların valideynləri tərəfindən çox müsbət qəbul olunmuşdur. Proses ərzində göstərilən psixososial dəstəyin keyfiyyətini və peşəkarlığını təmin etmək üçün, fəaliyyəti həyata keçirən könüllülərlə daimi olaraq canlı və online superviziya məqsədli görüşlər keçirilirdi.



**19**
Tədbirlərin sayı

**570**
İştirakçıların sayı

**8**
Bölgələrin sayı



Noyabr ayında həyata keçirilən psixososial dəstəyin təsirini öyrənmək və fəaliyyət haqqında rəy toplamaq məqsədi ilə məktəblərdə müəllim və valideynlərlə fokus qrup müzakirələri keçirilmişdir. Məktəb işçiləri və valideynlər tərəfindən fəaliyyətin müsbət təsirləri haqqında rəy toplanılmışdır. Avqust ayında AzQAC-ın rayon bölmələrindən seçilmiş PSPSD üzrə əlaqələndirici şəxslərin Psixi Sağlamlıq və Psixososial Dəstək (PSPSD) sahəsində bilik və bacarıqlarını artırmaq üçün BQX/QACF və BQXK tərəfindən birgə təlim keçirilmişdir.
**Aİ “Körpü”** layihəsi çərçivəsində aprel-avqust aylarında AzQAC bölmələrini əhatə edən PSDSD ilə bağlı müəyyən fəaliyyətlər həyata keçirildi. Aprel ayında AzQAC bölmələrinin PSPSD sahəsində hazırlığını qiymətləndirmək məqsədilə həmin bölmələrdə qiymətləndirmə həyata keçirildi. 23 may tarixində AzQAC rəhbərlik və işçi həmkarları ilə PSPSD mövzusunda dialoq yaratmaq və birlikdə gələcək planları müzakirə etmək məqsədilə görüş keçirildi. Müzakirə nəticəsində işçi qrupu yaradıldı. İyun-iyul ayında işçi qrupu ilə keçirilən məhsuldar görüşlər nəticəsində AzQAC PSPSD siyasəti hazırlandı.
AzQAC bölmələrində PSPSD üzrə əlaqələndirici şəxslərin təyin edilməsi məqsədilə iyul-avqust aylarında görüşlər və təlimlər həyata keçirilmişdir. Beləki, AzQAC PSPSD siyasətinin icrasını təmin etmək üçün, Milli Cəmiyyətin bölmələrində PSPSD üzrə əlaqələndirici şəxslərin təyin olunması qərarı verilmişdir. PSPSD üzrə əlaqələndirici şəxslər öz rayon və icmalarında AzQAC-ın PSPSD siyasətini icra edəcək və digər PSPSD fəaliyyətlərini həyata keçirəcəkdir.
AzQAC-ın Psixi Sağlamlıq və Psixososial Dəstək sahəsində "Care Group" şirkətinin birgə əməkdaşlığı ilə may-iyul aylarında Bərdə, Füzuli, Ağdam rayonlarında "Gənc Yazarlar" təlimi həyata keçirildi. Təlimin məqsədi şəhid övladlarının psixoloji vəziyyətlərini yaxşılaşdırmaq, onlarda öz güclərinə inamı tərbiyə etmək idi.

10 iyulda İcmaların cəlb olunması və cavabdehlik çərçivəsində həyata keçirilən təlimdə icmalarla fəaliyyət və məlumatların toplanılması zamanı səmərəli ünsiyyətin qurulması üçün Effektiv kommunikasiya sessiyası təşkil olunmuşdur. Təlim iştirakçıları icmalarla fəaliyyətlər zamanı zəruri olan effektiv ünsiyyət bacarıqlarına yiyələnmişlər.

Hər il olduğu kimi, 2023-ci ilin oktyabr ayında QXQA Hərakatının Avropa Şəbəkəsinin növbəti PSPSD forumu keçirilmişdir. Forum çərçivəsində müxtəlif məruzələr, vorkşoplar, praktiki tapşırıqlar və s. təşkil edilmişdir. AzQAC PSPSD mütəxəssisin QXQA Hərakatının Avropa Şəbəkəsinin PSPSD forumunda iştirak etmişdir. Forum “Travmaya Məlumatlı Yanaşma” mövzusuna həsr olunduğundan, AzQAC PSPSD mütəxəssisi forumda Travmaya Məlumatlı Yanaşma nümunəsi olan “Mənim Haqqımda Kitab” fəaliyyətinin AzQAC tərəfindən icrasına həsr olunmuş vorkşop keçirmişdir.



# Fövqəladə Hallar



2023-cü ilin yanvar ayında Qəbələ rayonunda Fövqəladə Hallar Nazirliyi ilə birlikdə meşə yanğınlarına hazırlıq və erkən xəbərdarlıq sistemlərinin tətbiq olunması kimi mövzular haqqında tədbir keçirilmişdir.

Yanvar ayında İtaliya Qızıl Xaçın nümayəndəsi, Beynəlxalq əməkdaşlıq və əlaqələr şöbəsinin Avropa, Asiya üzrə rəhbəri və eyni zamanda Qafqaz regionu üzrə müvəqqəti nümayəndəsi Fabrizio Damiani ilə fəlakətlərin qarşısının alınması, hazırlıq və cavab tədbirləri mövzusunda görüş keçirildi.

May ayında Bakı şəhərində Fövqəladə Hallar Nazirliyinin Mülkü Müdafiə qərargahı və adiyyəti qurumlarla birgə simulyasiya tədbiri təşkil edilmişdir. Tədbirdə fəlakətlər zamanı insanların təxliyyə olunması, qeydiyyata alınması, sığınacaqla təmin edilməsi və Qızıl Aypara Cəmiyyətinin könüllülərinin ilk yardım və psixoloji dəstəyin göstərilməsi uğurla icra edilmişdir.

Mərkəzi anbarın qalan hissəsi tam təmir edilmişdir. Orada olan mallar inventarlaşdırılmışdır. Anbar hesabat sisteminin təkmilləşdirilməsi məqsədilə müvafiq formalar hazırlanmışdır.

Fəlakətlərdən zəzər çəkmiş ailələrədən daxil olan müraciətlər əsasında yardımların göstərilməsi:




**Gəncə şəhərində baş vermiş sel daşqınları nəticəsində 25 ailəyə** gigiyenik dəst, döşək, yorğan, yastıq, ağcaqanad toru, içməli su bidonu, rezin çəkmələr kimi yardım edilmişdir. Eyni zamanda ümumilikdə **1000** nəfərdən çox ailə arasında maarifləndirmə işləri aparılmışdır. Əsasən bu fəaliyyətlər **Gəncə, Goranboy, İsmayıllı** şəhərlərində həyata keçirilmişdir.

“Təhlükəsiz və möhkəm icmaların qurulması”, meşə yanğınlarına hazırlıq, əhalinin maarifləndirilməsi kimi fəalliyyətlərin təşkili məqsədilə rəhbərliklə razılaşdırılmış qaydada layihə hazırlanaraq İtaliya Qızıl Xaçına təqdim edildi.

# Axtarış Xidməti

Məqsədimiz bir-birindən ayrı düşmüş ailə üzvlərinin əzab və iztirablarını azaltmaq, psixoloji köməklik göstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazımi məlumatları ailə üzvləri arasında mübadilə etmək və həmçinin bir-birinə qovuşdurmaq məqsədi daşıyır.

**Açılan işlər**




| | Miqrasiya | II Dünya müharibəsi zaman itkin düşənlərin axtarış | Repressiya |
|---|---|---|---|
| ■ Azərbaycan | 4 | 2 | |
| ■ Xarici | 5 | | 1 |

■ Azərbaycan ■ Xarici

**Bağlanan işlər**




| | Miqrasiya | II Dünya müharibəsi zaman itkin düşənlərin axtarış |
|---|---|---|
| ■ Müsbət | 6 | |
| ■ Mənfi | 4 | 1 |

■ Müsbət ■ Mənfi

**II Qarabağ müharibəsində axtarış xidmətinə müraciət edənlər:**

**7** Gələnlər

**7** Zənglər

**1** Məktub

# Miqrasiya



**230**

**İl boyu yardım alan miqrant ailə sayı**

**1257**

**Həyata keçirilən tədbir və yardımların əhatə etdiyi fərdlərin sayı**

**26**

**Müxtəlif tibbi dəstəkdən yararlanan miqrant sayı**

**30**

**Azərbaycan dili üzrə sertifikat alan miqrantlar**

Miqrantlar üçün həyata keçirilən Azərbaycan dili kursunun şagirdləri ilə görüş təşkil olundu. Görüş zamanı onların problemləri və təklifəri dinlənildi. 30 ailəyə humanitar yardım o cümlədən dərs ləvazimatları ilə köməklik olundu.

Ölkəmizdə yaşayan ehtiyaclı miqrant qruplarını cəmiyyətə inteqrasiyaya kömək etmək məqsədilə 100 nəfəri əhatə edən mariflənd irmə sessiyaları həyata keçrilmişdir. Ailələrə hər cür gigiyenik vasitələr, ərzaq yardımları, paltar, məişət əşyaları paylanılmışdır. Şəhər məktəbi ilə miqrant şagirdlərin Yeni il görüşü keçirilmiş və 30 migrant şagirdə məktəb şagirdləri tərəfindən dərs ləvazimatı hədiyyəsi verilmiş, çay süfrəsi təşkil edilmişdir. Azərbaycan dili tədrisi çərçivəsində miqrant kursantların Bakı ətrafında “Yanar dağ” və “Qobustan” milli tarixi etnoqrafiya muzeylərinə səfərini təşkil edilmiş və onlara geniş məlumat verilmişdir.

İl ərzində 7 nəfər Ukraynalı, 1 nəfər iranlı, 18 pakistanlı, 3 nəfər Türkiyədən 10 yeni miqrant ailə müraciət etdi. Miqrantlara ehtiyaca müvafiq geyim, ərzaq və məişət əşyaları verilmiş və 1 nəfəri Azərbaycan dili kursuna qəbul edimişdir.

Mart-may ayında AzQAC-nin Baş ofisində 36 miqranta “Sağlam həyat tərzi“ və ilk yardım mövzusunda sessiya keçirilmişdir.

Oktyabr ayında Azərbaycan dili kursunun 11-ci açılış tədbiri təşkil olundu. Açılışda 25 nəfər miqrant şagirdə dərs ləvazimatı paylanmış və şirniyyat süfrəsi açılmışdır.

Bütün bunlarla yanaşı Qurban bayramında (96 miqrant ailə), Ramazan bayramında (56 miqrant ailə) . 1 iyun Beynəlxalq uşaqların müdafiəsi günündə (25 miqrant ailə) günün məğzinə uyğun ailələrə yardımlar edildi.

# Silahlara Qarşı Mübarizə

Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç Komitəsi birgə olaraq "Mina Risklərinin Azaldılması" strategiyasına aid ənənəvi olaraq rayonlarda, icmalarda mina haqqında əhali arasında maarifləndirmə işləri aparmışdı. İl ərzində Tovuz, Qazax, Gədəbəy Tərtər, Goranboy, Ağdam, Füzuli və Cəbrayıl rayonlarında mina və partlamamış hərbi sursatların təhlükəsi haqqında **4180** sessiya və **12738** dən çox əhali arasında maarifləndirmə işləri aparılmışdır. Nəticə olaraq insanları mina və partlamamış hərbi sursatların təhlükəsi haqqında yayım sesiyaları həyata keçirilmişdir. Bunlar Qapı-Qapı sessiyaları, Məktəb sessiyaları və Məktəblərdə Forum Teatr Məşğələsi formatında təşkil olunmuşdur.

Hesabat ilində Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç Komitəsi birgə olaraq Milli Cəmiyyətin könüllülərinə mina və partlamamış hərbi sursatlar haqqında sessiyalar təşkil etmişdir. Sessiyalara 79 könüllü cəlb olunmuşdur.

Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Beynəlxalq Qızıl Xaç Komitəsi və Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) təşkilatçılığı ilə Cəmiyyətin könüllülərinə və bizimlə fəaliyyətlərdə iştirak edən minadan zərər çəkənlərə mina və partlamamış hərbi sursatlar haqqında 3 günlük təlim təşkil olunmuşdur. Təlimdə 25 könüllü iştirak etmişdir. 3 günlük təlimin sonunda iştirakçılara ANAMA Agentliyi tərəfindən Şəhadətnamələr təqdim edilmişdir.

**Layihənin əhatə etdiyi ərazi**




**4180**
Həyata keçən sessiya sayı

**12738**
Əhatə etdiyi insan sayı

**94**
Təlimlərə cəlb olunmuş könüllü sayı

# Gənclər və Könüllülər

AzQAC-ın Gənclər və Könüllülər şöbəsi və Gənclər Komitəsi tərəfindən 2023-cu ildə bir sıra işlər görülmüşdür. Belə ki, müxtəlif təhsil ocaqlarından (Slavyan, Turizm, Avrasya, Pedaqoji, Qərbi Kaspian, İqtisadiyyat, Dillər Universitetlərindən, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasından və Qərbi Kaspian Kollecindən) ümumilikdə **83** tələbə istehsalat təcrübəsində olmuş, bütün təşkilati işlər Gənclər Komitəsi tərəfindən tənzimlənib (şöbələr tərəfindən təlimlərin aparılması, Baş Qərargahda və rayon bölmələrində təşkil olunmuş fəaliyyətlərdə iştirak, təcrübə jurnallarının və xasiyyətnamələrin yazılması) həyata keçirilmişdir.

Qanvermə aksiyasında (Texniki, ADA, Pedaqoji Universitetləri, Bakı Texniki Kolleci) ümumilikdə **1200** tələbə qanvermə aksiyalarında iştirak etmişdir.

Lənkəran uşaq internatında 170 nəfərin yararlana biləcəyi kitabxana otağı yaradılmışdır.

Lənkəran qızlar uşaq evində **78** nəfərin yararlana biləcəyi intellektual oyun otağı yaradılmışdır .

1 iyun “Uşaqların müdafiəsi” günü ilə əlaqədar “Kinder Land” əyləncə mərkəzində **50** nəfər miqrantlara əyləncəli tədbir keçirilmişdir.

1 iyun "Uşaqlaların müdafiyəsi" günü ilə əlaqədar Füzuli rayonuna Qayıdış çərçivəsində 6 qəsəbədə yeniyetmələr arasında futbol yarışı keçirilmişdir (yarışdan 430 nəfər şagird bəhrələnmişdir).

**9839**
**Həyata keçirilən layihə və tədbirlərin əhatə etdiyi əhali sayı.**

**1200**
**Qanvermə aksiyasında iştirak edən tələbə sayı**

**10000**
**Ağacəkmə aksiyasında əkilən ağac sayı**



Ağdam rayonunun Sarıcalı kəndində 1 avqust "Azərbaycan əlifbası və Azərbaycan dili" gününə həsr olunmuş poeziya gecəsi keçirilmişdir (tədbirdə **310** nəfər müəllim, şagird, rayon ziyalıları, aşıqlar, şairlər iştirak etmişdir.)
15 sentyabr "Bilik günü" ilə əlaqədar Abşeron rayonunda **50** şagirdə dərs ləvazimatları və **20** ailəyə **20** velosiped hədiyyə edilmişdir.
**Ağdam, Bərdə, Füzuli, Gədəbəy, Qazax, Tərtər və Tovuz rayonlarının 7 kənd** orta məktəb anbarlarına aztəminatlı ailələrin uşaqları üçün dərs ləvazimatları verilmişdir. Məqsəd hər hansı bir şagirdə məktəb ləvazimatına ehtiyac yaranarsa məktəb rəhbərliyi tərəfindən lazım olan dərs ləvazimatları uşaqlara çatdırılacaqdır.
Bakı və Sumqayıtda 15 könüllünün iştirak etdiyi Gigiyena və Sağlamlıq təlimi keçirildi.
Təlimdən sonra məktəblərdə, uşaq evlərində, şəhid və qazi övladları üçün gigiyena və sağlamlıq mövzularında sessiyalar aparılmışdır (ümumilikdə sessiyalar **1500** şagird və müəllimi əhatə etmişdir), tədbirin sonunda şagirdlərə gigiyenik ləvazimatlardan ibarət hədiyyələr verilmişdir.
Danimarka Qızıl Xaç Cəmiyyətinin Gənclər proqramının texniki dəstəyi ilə "Təhlükəsiz məktəb üçün fəal gənclər" metodik vəsaiti (Modul) hazırlanmış və mövzu ilə əlaqədar 24 könüllüyə Təlimçilər üçün Təlim (ToT) keçirilmişdir.
Təlimdən sonra Ağdam, Bərdə, Füzuli, Qazax, Tərtər və Tovuz rayonlarında qiymətləndirmə işləri aparılmış, nəticədə seçilmiş kənd məktəblərində SPRİNT sessiyaları (uşaqlara kiçik layihələrin yazılması) təşkil olunmuşdur. Ümumilikdə 12 məktəbdə, 233 məktəbli üçün kiçik layihələrin yazılması öyrədilmişdir. Yazılmış kiçik layihələrin sayı **60** olmuşdur və onlardan **24** layihə seçilərək həyata keçirilmişdir.

**60**
**Təlimlərdə iştirak edən könüllü sayı**

**310**
**İsti geyim paylanan uşaq sayı**

**300**
**Sanitar gigyenik vasitələr verilən uşaq sayı**

Tarixi muzeylərə ekskursiya, bilik yarışması, fənn otaqlarının (2) abadlaşdıraraq ləvazimatların yığılması üçün rəflərin, jalyuzların alınması, su dispensirlərinin, zibil yeşiklərinin alınması, idman meydançalarının abadlaşdırılması, məktəbə (1) su xəttinin çəkilməsi, məktəbin həyatində ağacların əkilməsi və s. kimi kiçik layihələr həyata keçirilmişdir. İl ərzində həyata keçirilən kiçik layihələr **3600** şagirdi əhatə etmişdir.

“Fövqəladə Hallar Zamanı Fəlakət Riskinin Azaldılması” metodik vəsaiti (Modul) hazırlanmışdır və həmin mövzuda AzQAC-ın 9 nəfər könüllüsünə Təlimçilər üçün Təlim (ToT) keçirilmişdir.
Qiymətləndirmə nəticəsində seçilmiş Gədəbəy, Qazax və Tovuz rayonlarının kənd məktəblərində təlim keçmiş könüllərin vasitəsi ilə “Fövqəladə Hallar Zamanı Fəlakət Riskinin Azaldılması” mövzusunda məktəblilər üçün sessiyalar keçirilmişdir. Ümumilikdə üç məktəbdən 45 şagird bu sessiyalarda iştirak etmişdi. Seçilmiş məktəblərdə Fövqəladə Hallar Nazirliyinin dəstəyi ilə Təxliyyə, Axtarış, Xilasetmə və İlk yardıma dair simulyasiya tədbirləri keçirilmişdir. Ümumi tədbirdə iştirak edən şagirdlərin sayı **1400** nəfər olmuşdur.
**83** Rayon bölmələrində “Ağacəkmə” kompaniyaları keçirilmiş 10000 qədər ağac əkilmişdir.
Lənkəran RB-nin **12** nəfər könüllüsü üçün “Gigiyena və Sağlamlıq” mövzusunda təlim aparılmış, könüllülər isə öz növbəsində Lənkəran uşaq evində uşaqlar arasında sözü gedən mövzularda maarifləndirmə işləri aparmışlar. **3** uşaq evində **310** nəfər olmaqla, uşaqlar üçün isti qış paltarları və **300** şagird üçün Gigiyena və Sağlamlıq mövzusunda maarifləndirmə işləri aparılmış, sonda uşaqlara sanitar gigiyenik vasitələr hədiyyə edilmişdir.

**2023-cü ildə hazırlanmış sənədlər:**

- “Gənclər və Könüllülər” Strategiyası
- “Fövqəladə Hallar Zamanı Təhsil” Strategiyası

**Modullar**

- Hərəkatın tarixi, prinsipləri, fəaliyyəti haqqında təlim modulu
- Liderlik haqqında modul
- Təhlükəsiz məktəb üçün fəal gənclər modulu
- Fövqəladə Hallar Zamanı Fəlakət Riskinin azaldılması modulu
- Gigiyena və Sağlamlıq modulu

“Uşaqların müdafiəsi” siyasəti hazırlanır, tamamlanması növbəti il üçün nəzərdə tutulub.

Yollarda Təhlükəsizlik modulu hazırlanır, tamamlanması növbəti il üçün nəzərdə tutulub.

# Fövqəladə Mobil Könüllü Dəstələr

**17-18 avqust 2023-cü tarixində** Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Müdafiə şöbəsi tərəfindən AzQAC-ın Cəbrayıl və Füzuli rayon bölmələrinin könüllüləri üçün məlumatlandırıcı sessiya keçirilib. Sessiyanın əsas məqsədi müvafiq şöbənin fəaliyyətləri barədə könüllüləri məlumatlandırmaq olub. Sessiyada ümumilikdə **27 könüllü** iştirak edib.

**22-23 avqust 2023-cü il tarixində** Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) birgə təşkilatçılığı ilə AzQAC-ın Tərtər, Ağdam, Füzuli, Qazax, Bərdə, Cəbrayıl və Tovuz rayon bölmələrinin təcrübəli könüllüləri üçün **Kommunikasiya təlimi** təşkil olunub. Təlimin əsas məqsədi təcrübəli könüllülərin bilik və bacarıqlarını artırmaq və onları məktəblərdə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyəti haqqında yayım sessiyaları keçirməyə daha yaxşı hazırlamaq olmuşdur. Təlimdə hər rayon bölməsindən 2 könüllü olmaqla, ümumilikdə **14 könüllü** iştirak edib.

**30-31 avqust tarixində** Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Ailə Əlaqələrinin Bərpası şöbəsi tərəfindən AzQAC-ın Qazax və Ağstafa rayon bölmələrinin könüllüləri üçün məlumatlandırıcı sessiya keçirilib. Sessiyanın əsas məqsədi müvafiq şöbənin fəaliyyətləri barədə könüllüləri məlumatlandırmaq olub. Sessiyada ümumilikdə **33 könüllü** iştirak edib.

**10-11-12 oktyabr 2023-cü il tarixində** Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) birgə təşkilatçılığı ilə AzQAC-ın Bərdə, Ağdam, Tərtər rayon bölmələrinin könüllüləri üçün **"Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı" haqqında Əsas Tanışlıq Kursu** keçirilib. Kursun əsas məqsədi Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının missiyasını, komponentlərini və əsas prinsiplərini daha yaxşı başa düşmək və Azərbaycan Qızıl Aypara Cəmiyyətini ictimaiyyətdə layiqincə təmsil etmək üçün könüllülər arasında Qızıl Xaç və Qızıl Aypara Hərəkatı haqqında bilikləri yaymaq olub. Ümumilikdə, kursda AzQAC-ın Bərdə, Ağdam və Tərtər rayon bölmələrindən **49 könüllü iştirak** edib.

**Fəaliyyətlərin həyata keçirildiyi ərazilər:**






**1-2 noyabr 2023-ci il tarixlərində** Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) Füzuli, Xocavənd və Cəbrayıl rayon bölmələrinə yeni qoşulan könüllülər üçün **“Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı” haqqında Əsas Tanışlıq Kursu** keçirilib. Kursun əsas məqsədi Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının missiyasını, komponentlərini və əsas prinsiplərini daha yaxşı başa düşmək və Azərbaycan Qızıl Aypara Cəmiyyətini ictimaiyyətdə layiqincə təmsil etmək üçün könüllülər arasında Qızıl Xaç və Qızıl Aypara Hərəkatı haqqında bilikləri yaymaq olub. Ümumilikdə, kursda AzQAC-ın **Füzuli, Xocavənd və Cəbrayıl** rayon bölmələrindən **35 könüllü** iştirak edib.

**14-15 noyabr 2023-cü il tarixində** Bərdə rayonunda Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) birgə təşkilatçılığı ilə Fövqəladə Mobil Könüllü Dəstələrin (FMKD) üzvləri üçün **kommunikasiya təlimi** keçirilib. Təlimin əsas məqsədi AzQAC-a yeni qoşulmuş könüllülərə Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı haqqında ətraflı məlumat verməkvə könüllülərin ictimaiyyət qarşısında çıxış etmək üçün təqdimat bacarıqlarının təkmilləşdirilməsi olub. Təlimdə AzQAC-ın Füzuli, Tərtər, Ağdam, Qazax, Tovuz, Cəbrayıl və Bərdə, rayon bölmələrindən **25 könüllü işitrak** edib.

**27-30 noyabr tarixlərində** Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) birgə təşkilatçılığı ilə AzQAC-ın Ağdam və Tərtər rayon bölmələrindən olan Fövqəladə Mobil Könüllü Dəstələrin (FMKD) üzvləri üçün **Əsas Bacarıqlar təlimi** təşkil olunub. Təlimin əsas məqsədi iştirakçıların şəxsi və peşəkar fəaliyyətlərində effektiv lider olmaq üçün bilik və bacarıqlarını inkişaf etdirmək olub. Təlimdə AzQAC-ın Ağdam və Tərtər rayon bölmələrindən **20 nəfər könüllü** iştirak edib.

**İlk Yardım Postları** AzQAC-ın rayon bölmələri tərəfindən ən azı ayda bir dəfə ictimaiyyətin toplaşdığı yerlərdə təşkil edilir. Bu tədbirinin əsas məqsədi AzQAC-ın rayon bölmələri tərəfindən təqdim olunan İlk Yardım xidmətlərini ictimaiyyətə nümayiş etdirməkdir. Belə müntəzəm tədbirlərin təşkili həm də FMKD-nın könüllülərinə İlk Yardım texnikalarını tez-tez tətbiq etmək və biliklərini möhkəmləndirmək imkanı verir.

**8**
Təlimlərin sayı

**203**
İştirak edən könüllülərin sayı

**80**
İlk yardım postlarının sayı

**4200**
Əhatə olunan şagirdlərin sayı

**200**
Sığortalanan könüllü sayı

**250**
Üzvlük vəsiqəsi əldə edən könüllü sayı



2023-cü ildə AzQAC-ın Tərtər, Ağdam, Füzuli, Qazax, Tovuz, Bərdə və Sumqayıt rayon bölmələri tərəfindən ümumilikdə 80 İlk Yardım Postu tədbiri həyata keçirilib. İlk Yardım postu tədbirində **150** AzQAC könüllüsü təlimçi qismində iştirak edib, **2000** nəfər məktəbli sessiyalardan faydalanıb.

2023-cü ildə AzQAC-ın Tərtər, Ağdam, Füzuli, Qazax, Tovuz, Bərdə, Sumqayıt rayon bölmələri tərəfindən ümumilikdə “Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı” haqqında yayım sessiyaları həyata keçirilib. Sessiyalar zamanı **145** könüllü təlimçi qismində iştirak edib, **2200** nəfər məktəbli sessiyalardan faydalanıb.

BQXK AzQAC bölmələrinin maliyyə müstəqilliyini artırmaq məqsədi ilə rayon bölmələrinin gəlir gətirmə fəaliyyətlərini müvəqqəti olaraq dəstəkləyir. Bu prosesin bir hissəsi olaraq 2019-cu ildən Tərtər rayon bölməsində kompüter təhsili mərkəzi kimi fəaliyyət göstərən Peşə Tədris Mərkəzinə dəstək verilir. BQXK-ın Əməkdaşlıq şöbəsi kompüter təhsili üzrə təlimatçının aylıq əmək haqqını ödəyir ki, bölmə əldə olunan vəsaiti bölmənin digər işlərinə və mərkəzi genişləndirmək üçün istifadə etsin.

AzQAC-ın 200 nəfər könüllüsü Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Federasiyası tərəfindən IFRC sığorta proqramı ilə sığortalanıb.

AzQAC-ın 250 nəfər könüllüsü üçün Fövqəladə Mobil Könüllü Dəstələrə (FMKD) üzvlük vəsiqəsi hazırlanıb.

Milli Cəmiyyətin texniki bazasını inkişaf etdirmək üçün BQXK AzQAC-ın bölmələrinə ofis mebeli, texniki avadanlıqlar (kompüter, printer və s), identifikasiya vasitələri (önlüklər, AzQAC loqosu olan gödəkçələr və s.) ianə etmişdir.

# Humanitar Yardım

Hesabat ili ərzində hər həftənin çərşənbə günü AzQAC-ın ofisində vətəndaşların qəbulu zamanı şöbənin iştirakı təmin olunub. Müxtəlif səpkili məsələlərlə bağlı fərdi müraciət edənlərin sayı 67 nəfər təşkil edib.

İl ərzində 2 nəfər şöbədə , 38 nəfər isə digər bölmələr üzrə əlavə qeydiyyata götürülərək qeydiyyat siyahılarına əlavə edilmişlər. Şöbə və yerli bölmələr üzrə ümumilikdə 10.000 nəfərə yaxın müvafiq kateqoriyalı insan daimi qeydiyyatdadır. Bunlardan 3120 nəfəri Bakı şəhəri üzrə yerli bölmələrdə, 6880 nəfəri digər şəhər və rayon bölmələrində qeydiyyatdadır.

İl ərzində şöbəyə 28 yazılı müraciət daxil olmuş, 56 fərdi müraciət ərzaq və s. formada humanitar yardım göstərilməsi ilə bağlı, 30 nəfər güzəştli tibbi müayinə keçməklə bağlı müraciət etmişdir. Müraciətlər mümkün imkanlar daxilində müsbət cavablandırılmışdır. İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin Azərbaycandakı Klinikası fəaliyyətini dayandırdığı üçün güzəştli tibbi müayinənin təşkili mümkün olmamışdır.

İl ərzində şöbəyə 14 miqrant ailəsi tərəfindən sosial vəziyyətin yaxşılaşdırılması ilə bağlı müraciət daxil olmuşdur. Onlardan 9-u müsbət cavablandırılmış, 5 müraciətin həlli Cəmiyyətin səlahiyyətləri xaricində olduğundan onlarla müvafiq izahat işləri aparılaraq aidiyyatı üzrə yönəldilmişdir.

**67**
Yeni müraciət edənlərin sayı

**28**
Yazılı müracət

**56**
Fərdi müraciət

**14**
Miqrant ailə

**Tənha və kimsəsiz, aztəminatlı insanların şöbədə və yerli bölmələrdə qeydiyyatı**

| 3120 | 10000 | 6880 | 40 |
|---|---|---|---|
| Bakı şəhəri | Ümumi | Digər şəhər və rayon bölmələri | Bu il qeydiyyata alınanların sayı |



Azərbaycan Qızıl Aypara Cəmiyyəti ölkədə yaşayan hər bir insana dinindən, dilindən, irqindən, siyasi fikirlərindən asılı olmayaraq real ehtiyac yarandığı zaman hər bir icmaya yardım etməyə hazır olduğunu göstərmişdir. Bunun bariz nümunəsi olaraq, avqust ayının 29-dan sentyabr ayının 28-nə kimi Qarabağda yaşayan sakinlərin ərzaq ehtiyaclarının qarşılanması məqsədilə AzQAC 40 ton ərzaq yardımı iki TIR tipli yük avtomobili və Rusiyadan göndərilən bir TIR yük avtomobili ərzaq və qeyri-ərzaqla Ağdam-Xankəndi yolu ilə təyinatı üzrə çatdırılmışdır.



# Beynəlxalq Əlaqələr



2023-cu il 27 yanvar tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) baş idarəsində AzQAC, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (Beynəlxalq Federasiya) və İsrailin Azərbaycandakı səfirliyi arasında üçtərəfli görüş keçirilib. Görüşün əsas məqsədi humanitar sahədə mövcud əlaqələrlə bağlı fikir mübadiləsi aparmaq, əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi barədə gələcək layihələri müzakirə etmək olub.

27 yanvar tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin Federasiyası arasında AzQAC-ın baş idarəsində iki tərəfli görüş keçirilib. Görüşdə iki təşkilat arasında ümumi görülən işlər, qarşılıqlı əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr barədə söhbət açılıb. Ötən illərdə olduğu kimi bu ildə də əməkdaşlıq çərçivəsində həm AzQAC, həm də Beynəlxalq Federasiyası qarşıya qoyulan məqsədə çatmaq üçün üzərlərinə düşən öhdəliklərin zamanında və yüksək səviyyədə yerinə yetirilməsinin önəmi vurğulanıb.



8 fevral tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) və Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Azərbaycan nümayəndəliyi arasında əməkdaşlığın istiqamətlərinə dair görüş keçirilib. Görüşün məqsədi təşkilatlar arasında əməkdaşlığın istiqamətlərini, planları və əsas hədəfləri müzakirə etmək idi. Görüşdə hər iki qurumun əməliyyat şöbələrinin nümayəndələri cari il üçün planları təqdim edib və ümumi məqsədlərə çatmaq üçün birgə tərəfdaşlıq fəaliyyətlərini müzakirə ediblər.

17 apreldə AzQAC-ın prezidenti, millət vəkili cənab Novruz Aslanov BQKX-nin Azərbaycandakı nümayəndəliyinin başçısı xanım Draqana Koiç arasında ikitərəfli görüş keçirilib. Görüşün əsas məqsədi iki təşkilat arasında əməkdaşlıq çərçivəsində aparılan işlərin, gələcəkdə planlaşdırılan fəaliyyətlərin müzakirəsi oldu. Görüş zamanı, Azərbaycan Ermənistan sərhədində baş verən toqquşma və əsir götürülmüş Azərbaycan vətəndaşları ilə bağlı müzakirələr aparıldı.



Mayın 8-də Bakı şəhərində Azərbaycan Qızıl Aypara Cəmiyyəti, Beynəlxalq Qızıl Xaç/Qızıl Aypara Cəmiyyətləri Federasiyası, Beynəlxalq Qızıl Xaç Komitəsi və Ümumdünya Səhiyyə Təşkilatının birgə təşkilatçılığı ilə AzQAC-ın fəxri üzvü, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara gününün 160 illiyi və 12 may – Ümumdünya Tibb Bacıları Gününə həsr olunmuş tədbir keçirilmişdir.

11 sentyabr 2023-cü il tarixdə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin prezidenti, Novruz Aslanov Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyəti Federasiyasının Cənubi Qafqaz ölkələri üzrə nümayəndəliyinin rəhbəri Davron Muhammadiyev və Beynəlxalq Federasiyanın Azərbaycandakı nümayəndəliyinin proqramlar və əməliyyatlar üzrə meneceri Serdar Güneli qəbul edib.



Görüşdə iki təşkilat arasında görülən ümumi işlər, qarşılıqlı əməkdaşlıq çərçivəsində həyata keçirilən layihələr barədə söhbət açılıb. Həmçinin, onlar Qarabağ İqtisadi Rayonunda mövcud olan vəziyyətdən, AzQAC tərəfindən göndərilən 40 ton un məmulatının Xankəndində yaşayan erməniəsilli sakinlərin ərzaq ehtiyatlarının qarşılanması məqsədilə AzQAC-ın əməkdaşları və könüllülərinin 14 gün Ağdam-Xankəndi yolunda gözləmələri, eyni məqsədlə Rusiya Qızıl Xaç Cəmiyyəti tərəfindən gətirilən ərzaq və qeyri-ərzaq yükünün Bərdə şəhərində gözləməsi məsələlərini müzakirə ediblər. Milli Cəmiyyətin prezidenti Novruz Aslanov Davron Muhammadiyevə Federasiyanın Milli Cəmiyyətə göstərdiyi dəstəyə görə təşəkkürünü bildirib və gələcəkdə də humanitar sahədə Beynəlxalq Hərəkat daxili humanitar fəaliyyətlərin yüksək səviyyədə inkişaf edəcəyini bildirib.

13 Sentyabr 2023-cü il tarixində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin baş ofisində 3 tərəfli görüş keçirilib. Görüşdə AzQAC-ın prezidenti Novruz Aslanov, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyəti Federasiyasının Cənubi Qafqaz ölkələri üzrə nümayəndəliyinin rəhbəri Davron Muhammadiyev, Beynəlxalq Federasiyanın Azərbaycandakı nümayəndəliyinin proqramlar və əməliyyatlar üzrə meneceri Serdar Günel və İtaliya Qızıl Xaç Cəmiyyətinin Qafqaz regionu üzrə nümayəndəsi Simona Rescigno iştirak edib. Görüş zamanı AzQAC-ın fəaliyyətləri, davam edən layihələri, İtaliya Qızıl Xaç Cəmiyyətinin Cənubi Qafqazda həyata keçirdiyi layihələr və Milli Cəmiyyətlər arasında əməkdaşlıq çərçivəsində görülə biləcək işlər barədə müzakirə aparılıb.

Ötən ilin əlamətdar hadisələrindən biri də dekabr ayında Cenevrə şəhərində BQXQACF-nın növbədənkənar prezident seçkiləri keçirilmiş və AzQAC öz nümayəndə heyəti ilə orada iştirak etmişdir.

# Nağd Pul və Vauçer Yardımı

AzQAC və Azərpoçt 4 illik NPVY Çərçivə Müqaviləsi imzaladı

22 fevral tarixində AzQAC-ın baş ofisində Nağd Pul və Vauçer Yardımı (NPVY) üzrə işçi qrupunun iclası keçirilib. Görüş zamanı NPVY layihəsinin monitorinq nəticələri, 2022-ci il üzrə NPVYH prosesinin icmalı, çətinliklər və yaxşı təcrübələr, 2023-cü il üçün təkliflər, öyrənilən dərslər üzrə müsahibələr (geri bildirim), Beynəlxalq Federasiyanın NPVY nümayəndəsinin yeni təyinatı haqqında müzakirələr aparılıb. 14 Aprel 2023-cü il tarixində, Nağd Yardım Layihəsinin Monitorinq nəticələrinə əsasən Yardım sonrası Monitorinq Hesabatı hazırlanıb çap olunmuşdur.

18-19 May 2023-cü ildə Avropa İttifaqı (Aİ) və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının dəstəyi ilə NPVY Üzrə Özünü Dəyərləndirmə Seminarı keçirilmişdir. Seminar zamanı, iştirakçıların düşüncələri və sualları və qrup işlərinin müzakirələri aparılmışdır. Ardınca Azərbaycanda NPVY üzrə SWOT analizi, əsas prioritet tədbirlərin müəyyən edilməsi və AzQAC NPVY hazırlıq fəaliyyəti planının yenilənməsi mövzularında qrup işləri təşkil edildi. Seminarın plenar sessiyasında qruplar üzrə hazırlanan FP komponentləri təqdim edildi, əsas prioritetlər haqqında danışıldı. Seminar iki günün icmalının təhlili, gələcəkdə bu sahə üzrə atılacaq addımların müzakirəsi və yekun fikirlərin səsləndirilməsi ilə yekunlaşdı və iki illik fəaliyyət planı hazırlandı.



29-31 may Macarıstanın Budapeşt şəhərində zərərçəkmiş Ukraynalılara nağd pul yardımı ilə bağlı seminar keçirilib. AzQAC-nin əməkdaşı Budapeştdə Milli Cəmiyyəti təmsil etmişdir. Seminarda həssas qrupların qeydiyyata alınması üçün yaradılmış ACCESS RC 2.0 tətbiqi ilə tanışlıq, praktiki istifadənin təkmilləşdirilməsinə yönəlmiş bir neçə sessiya və seminarlar baş tutub. Sessiya zamanı, fövqəladə hallara effektiv cavab vermək üçün yenilənmiş nağd pul hazırlığı alətləri haqqında təqdimatlar edilmiş və uğurlu Milli Cəmiyyətlər cari NPVY Hazırlığı proqramlarından nümunələr təqdim etmişlər. Sessiya zamanı, fövqəladə hallara effektiv cavab vermək üçün yenilənmiş nağd pul hazırlığı alətləri haqqında təqdimatlar edilmiş və uğurlu Milli Cəmiyyətlər cari NPVY Hazırlığı proqramlarından nümunələr təqdim etmişlər. Seminarda AzQAC nümayəndəsi NPVY sahəsindəki MC-in fəaliyyətini əhatə edən təqdimatla çıxış edib.

17-21 noyabr tarixlərində Avropa Birliyi tərəfindən göndərilmiş mütəxəssis Gashi Ljuan Marko AzQAC-ın Sumqayıt, İmişli və Füzuli rayon bölmələrinə səfər edib. Səfər zamanı AzQAC və BQX/QACF birgə təşkilatçılığı çərçivəsində Avropa Birliyinin maliyyə dəstəyi ilə seçilmiş bölgələrdə həyata keçirilmiş Nağd Pul və Vauçer Yardımı (NPVY) layihəsinin nəticələri geniş şəkildə müzakirə olunub. Bu layihə çərçivəsində əldə olunan nailiyyətlər dəyərləndirilərək layihənin bölgədəki təsirini və effektivliyi qiymətləndirib. Səfər zamanı İmişli və Füzuli rayonlarında yardımın paylanıldığı ehtiyaclı ailələrə diqqət yetirilib və onların yaşayış şəraitləri ilə yaxından tanış olunub. Mütəxəssis həmin bölgələrdə layihənin nəzarət və icrası ilə bağlı ətraflı təhlil və müşahidələr apararaq, mövcud problemlər və əhalinin həssas qrupları haqqında ətraflı məlumat toplayıb.



29 noyabr tarixində Bakı şəhərində Cəmiyyət NPVY üzrə Standart Əməliyyat Prosedurları (SƏP) seminarı keçirib. Seminarın əsas məqsədi təşkilatın bütün müvafiq şöbələrinin, texniki işçi qrupunun və dəstək işçilərinin iştirakı ilə AzQAC NPVY SƏP sənədini işləyib hazırlamaq olub. Bununla yanaşı, SƏP sənədinin forma və məzmunu, rol və vəzifələr (RACI) matrisi vasitəsilə işçi heyətinin NPVY əməliyyatları üçün öhdəliklərini müəyyənləşdirmək, SƏP-lərin təsdiqi, istifadəsi və yenidən baxılması üçün növbəti addımları müzakirə etməkdən ibarət olub. Seminar zamanı iştirakçılarla NPVY mərhələləri və AzQAC-ın fəaliyyətlərinə inteqrasiyası haqqında müzakirələr aparılmış, qrup işləri vasitəsilə işçi heyəti

üzvlərinin hər mərhələ və alt-mərhələ üzrə rol və vəzifələrini müəyyən etmək üçün təhlil aparmış və əldə olunan nəticələrə əsasən təqdimatlar etmişlər. Seminarda yekununda ilkin variantda hazırlanan NPVY SƏP sənədinin tamamlanması və təsdiq olunması üçün rəhbərliyə təqdim olunması qərarlaşdırılmışdır.




13-15 Dekabr 2023-cü ildə Avropa İttifaqı (Aİ) tərəfindən maliyyələşdirilən və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası tərəfindən həyata keçirilən “Azərbaycanda icmanın ehtiyacları və yerli imkanlarla vətəndaş cəmiyyəti təşkilatlarının potensialları arasındakı boşluğun aradan qaldırılması” layihəsi çərçivəsində 12 Vətəndaş Cəmiyyəti Təşkilatı (VCT) üçün “Humanitar Fəaliyyət üzrə Oriyentasiya” təlimi keçirilib. Bu təlimdə Nağd Pul və vauçer yardımı (NPVY) proqramı üzrə ilkin biliklər və layihənin həyata keçirilmə dövrü üzrə təqdimatlar da edilmiş və məsul NPVY üzrə AzQAC və BF-nın məsul şəxsləri öz təcrübələrini iştirakçılarla bölüşmüşlər.

# İnsan Resursları

2023-cu ildə AzQAC Milli Cəmiyyətin İnkişafını dəstəkləmək məqsədilə əsas vəzifələrə işçi qəbulu prosesini davam etdirdi. Bununla əlaqədar, yerli iş portalında vakansiya hazırlamaq və yerləşdirmək, namizədlərin tərcümeyi-halını nəzərdən keçirmək və seçmək, müsahibələr aparmaq, seçilmiş namizədə iş təklifləri göndərmək və müqavilələr hazırlamaq kimi bütün lazımi proseslər həyata keçirilmişdir.

2023-cu il martında Fandreyzinq üzrə əməkdaş bu layihələrin həyata keçirilməsini dəstəkləmək məqsədilə işə qəbul olundu. CBF (Capacity Building Funding) layihəsinin maliyyə dəstəyi ilə Milli Cəmiyyətdə Mərkəzi Rəy Mexanizmini dəstəkləmək məqsədilə İnformasiyanın İdarəedilməsi üzrə əməkdaş fəaliyyətə başladı. Bundan əlavə, İnformasiya Təhlükəsizliyi, İnformasiya və Kommunikasiya üzrə əməkdaşların işdən ayrılması ilə əlaqədar bu vəzifələrə yenidən baxıldı və dərhal yeni işçilər işə götürüldü.

AzQAC aşağıdakı sənədləri hazırlayaraq hüquqi bazanın daha da təkmilləşdirilməsinə diqqət yetirdi:

1. İşə qəbul proseduru- yeni işçini şirkətə və onun mədəniyyətinə inteqrasiya etmək üçün hazırlanmış sənəd. Bu, yeni işçilərə rollarını və işlərini başa düşməyə, yeni iş yoldaşları ilə tanış olmağa, işlərini uğurla yerinə yetirmək üçün bütün mənbələrə daxil olmağa və təşkilatda özlərini iş şəraitinin tələblərinə uğun mühitdə hiss etməyə imkan verir. Təlimatlar hazırda Milli Cəmiyyətin rəhbərliyi tərəfindən nəzərdən keçirilir.

2. Davranış qaydaları-təşkilat işçilərindən, könüllülərdən və təcrübəçilərdən gözlənilən etik və davranış standartları ilə bağlı təlimatları əks etdirən sənəd. Sənəd hazırda yazı mərhələsindədir.

AzQAC, İnsan Resursları, Satınalma və Maliyyə sahələrini əhatə edəcək 1C Proqram Təminatının inteqrasiyası üçün ilk addımları atdı. İR baxımından bu proqram idarəetmə proseslərini, əmək haqqı və hesablamaları optimallaşdırmağa, işə qəbul, işdən çıxarılma, işçilərin vəziyyətindəki dəyişikliklər, iş cədvəlləri və s. izləməyə kömək edəcəkdir.

AzQAC-ın strukturunu əks etdirən orqanoqram hazırlanmışdır. Yeni xidmət müqavilələri və əmək haqqına əlavə ödənişlər üçün müqavilə hazırlanmışdır. Bu müqavilə layihənin maliyyələşdirilməsindən faydalanan işçilər üçün nəzərdə tutulmuşdur.

# Fandreyzinq

**450.000 AZN**

**Bir ayda toplanan rekord ianə**

**8**

**Həyata keçrilən aksiya sayı**

**14**

**Əhatə etdiyi ərazi sayı**

**1774**

**Əhatə etdiyi insan sayı**

Vəsaitlərin toplanması və ianələrin idarə olunması üçün veb səhifə 2022-ci ilin sonundan etibarən hazırlanıb və tam fəaliyyət göstərir. İİS Azərbaycanda digər maliyyə xidmətləri tədarükçülərinin kiosklarına və rəqəmsal infrastrukturuna qoşulub. Sistem AzQAC-a öz hesabatını yaxşılaşdırmağa imkan verir və ianələrin vaxtında izlənilməsinə kömək edir. AzQAC-ın sosial şəbəkələrdəki korporativ hesablarında və korporativ veb səhifəsində yayımlanan ianə metodologiyaları haqqında bir neçə informasiya videosu hazırlanıb.

Türkiyədə baş verən dağıdıcı zəlzələyə cavab olaraq şöbə dərhal vəsait toplamaq üçün kampaniya təşkil edib. 2022-ci ildə yaradılan onlayn ianə platformasından istifadə edərək kampaniya bütün insanları dəstək olmağa səsləyib. Fevral ayında cəmi 1 ay ərzində təxminən **450.000 AZN** ianə vəsaiti toplanıb. Bu nailiyyət həm ianələrin məbləğinə, həm də müddətinə görə tarixi rekordları təzələməklə yanaşı, onlayn platformanın və həyata keçirilən marketinq strategiyalarının uğurunu da üstələyib. Nəticə investisiyalarımızın və səylərimizin düzgün istiqamətləndiyini səmərəli şəkildə nümayiş etdirdi





Şöbə ən böyük korporativ donorlarla, o cümlədən Pasha Bank, Aurora Group, Bazarstore və başqaları ilə tərəfdaşlıq əlaqələrini uğurla qurmuşdur. Bu əməkdaşlıq vəsaitin davamlı toplanması yolunda mühüm addımdır. Donor bazamızı şaxələndirərək, biz humanitar məqsədləri dəstəkləmək üçün maliyyə sabitliyimizi və potensialımızı möhkəmləndiririk.

Müxtəlif bayramlar və əhəmiyyətli günlər ərəfəsində, şöbə Yeni il, Novruz bayramı, Məktəbə Qayıdış və Qurban bayramına həsr olunmuş aksiyalara dair bir çox işguzar əlaqələrin dəstəyi ilə kampaniyalar təşkil edib və həyata keçirib. Birgə səylər bayram günlərində ictimaiyyəti cəlb etmək qabiliyyətimizin nümayiş etdirilməsində öz töhfələrini vermişdir.

Hesabat dövründə şöbə tədbirlər təşkil edib və 956 ehtiyaclı insana birbaşa yardım edib, o cümlədən:

2 rayonda 150-dən çox uşaq "Paşa Bank"ASC və "Avrora"MMC şirkətlərinin dəstəyi ilə məktəb çantaları və ləvazimatları ilə təmin edilmişdir.

Ölkəmizin 5 rayonunun ucqar kəndlərində 10-dan çox məktəbliyə isə "ABC-Telekom" MMC-nin tərəfindən notbuklar ianə edilib. Neftçala rayonunda 262 ehtiyaclı ailəyə (təxminən 786 nəfər) "Lu-Mun Holding" MMC-nin dəstəyi ilə ərzaq bağlamaları paylanılıb.





2023-cü il Dekabr ayının sonunda **"Pasha Bank" ASC və "Silk Vey Vest Aviaşirkəti" MMC-nin dəstəyi ilə :**

- ***İsmayıllı***
- ***Şəki***
- ***Qax***
- ***Zaqatala***
- ***Abşeron***
- ***Qobustan***
- ***Şamaxı*** rayonlarında ***"Qış Möcüzəsi"*** aksiyası keçirilmişdir. Layihə çərçivəsində **250 ailəyə** humanitar yardım qutuları paylanılıb. Layihə ümumilikdə 750 nəfəri əhatə edib.

Şöbə Qırmızı Ay loqosunun standartlaşdırılmasını və düzgün istifadəsini təmin etmək üçün AzQAC marka üslubu üzrə siyasət hazırlamışdır. Əsas prinsiplər İdarəetmə Şurası tərəfindən təsdiqləndikdən sonra AzQAC-ın regional mərkəzləri ilə paylaşılacaq.

Şöbə donor təklif formatını yenidən nəzərdən keçirərək yeniləmişdir.

"Microsoft Cooperation"-nın Azərbaycandakı nümayəndəliyindən (yerli pərakəndə satıcı) "Qeyri-kommersiya" statusu, həmçinin rəqəmsal tətbiqlərə giriş yolu ilə şirkətdən təbii formada ianə alıb. Eyni zamanda Meta-dan (Facebook) ianələr alınmış və Coca-Cola ilə əməkdaşlığa başlanmışdır.

# İnformasiya və Kommunikasiya

Yeni veb sayt müvəffəqiyyətlə fəaliyyətdədir. Yeni veb saytın istifadəçi-dostu dizaynı, birləşmiş funksiyaları, istifadəçilərin sürətli və asan naviqasiya etmələrini təmin edir. Ödəmə terminallarından ianə etməyin addımlarını video halına salaraq sosial media və Youtube kanallarında paylaşılıb. Təlimat videosunun məqsədi ianə prosesini istifadçilər üçün sadələşdirməkdir.

**Sosial Media siyasəti** yazıldı, Kommunikasiya siyasəti yenidən nəzərdən keçirildi və əlavələr olundu. Kommunikasiyaya və mediaya aid təlimatlar hazırlanaraq könüllülərə və əməkdaşlara göndərildi. Bununla yanaşı kommunikasiya üçün nəzərdə tutulan icazə vərəqəsi gözdən keçirilib, yenidən yazıldı.

5 bölmənin ( **Füzuli, Bərdə, Ağdam, Tovuz, Tərtər**) könüllülər üçün təlimlər təşkil olundu. Təlimlərin məqsədi bölmələrdə və Baş İdarədə fəaliyyət göstərən könüllülər və işçilər üçün ətraflı şəkildə məlumat paylaşmağa, sosial media siyasətini başa düşməyə və kommunikasiya bacarıqlarını inkişaf etdirməyə kömək etmək idi.

Sosial media kanallarının (Facebook, Instagram, Twitter, LinkedIn) standartlaşdırılması və səliqəyə salınması üçün bir sıra tədbirlər görülüb. Bura keyfiyyətli postların paylaşılması, keyfiyyətli şəkil və video məzmunların seçilməsi və paylaşılması, cümlələrin daha rahat oxunaqlı, aydın və səlis formada yazılması, profil loqosunun vektorunun yaradılması, örtük şəklinin dizayn olunması və s. daxildir. Rayon bölmələri üçün sosial media hesablarının standardlaşdırılması, bölmələrinin sosial media kanalları üçün standard profil və örtük şəkillərinin dizaynı tərtib olundu. Hazırda artıq 30 rayon bölməsinin Facebook səhifəsi standartlaşdırılmışdır.

Rəsmi veb-saytda operativlik təmin olunub. 2023-ci ildə **260**-dan çox məqalə həm Azərbaycan həm də İngilis dilində paylaşılıb. Onlayn qəzetin dizaynı və məzmun strukturu hazırlandı. Aktiv olaraq hər ayın sonunda onlayn qəzet əməkdaşlara email olaraq göndərilir. Bu ildən Twitter-da paylaşımlar əsas ingilis dilli auditoriyanı hədəf alaraq postlar yalnız ingilis dilində paylaşılır. Digər sosial media şəbəkələrimizdə 2023-cü ildən bütün paylaşımlar həm azərbaycan, həm də ingilis dilində yayımlanır . Bu il eyni zamanda TikTok kanalımız yaradıldı.

| | | | | |
|---|---|---|---|---|
| **260 məqalə** | **404000 əhatə sayı** | **944000 əhatə sayı** | **270000 əhatə sayı** | **22000 əhatə sayı** |

# İcmaların Cəlb Olunması və Cavabdehlik

2023-cu ildə İcmaların Cəlb Olunması və Cavabdehlik (İCOC) sahəsində həyata keçirilən fəaliyyətlər dörd istiqamət üzrə reallaşdırılmışdır:

1. AzQAC üçün mərkəzi rəy mexanizminin yaradılması;
2. İcmaların və onların ehtiyaclarının müəyyən edilməsi;
3. AzQAC üçün ICOC hüquqi bazasının yaradılması;
4. Regional Mərkəzlərdə İCOC imkanlarının müəyyən edilməsi və orada İCOC üzrə məsul şəxslərin təyin edilməsi.

İl ərzində AzQAC İCOC-u institusionallaşdırmaq üçün həm daxili şöbələrlə, həm də ÜST və Aİ kimi xarici tərəfdaşlarla fəal əməkdaşlıq edib. AzQAC-ın İCOC nümayəndəsi Azərbaycanda icmaların peyvənd olunmağa təşviq edilməsinə dair fəaliyyət planının hazırlanması ilə bağlı ÜST seminarında iştirak etdi.

AzQAC-da İCOC və MHPSS fəaliyyətlərinin birgə əməkdaşlığı haqqında qərar qəbul olundu. Qərara əsasən icma ehtiyaclarını müəyyənləşdirmək üçün həyata keçiriləcək qiymətləndirmədə, məlumatların toplanmasında MHPSS öz istiqamətindən İCOC-a adları keçən fəaliyyətlərdə kömək edəcək.

İl boyu AzQAC yerli bölmələrlə əməkdaşlıq edərək İCOC perspektivindən lazımi məlumatları toplayıb. Müvafiq məlumatların toplanması üçün ilk addım olaraq İsmayıllı, Sumqayıt və Bakı Regional Mərkəzlərində filialdaxili sorğu aparılıb.

**21 avqust 2023-cü ildə iki İCOC ilə bağlı sənəd AzQAC İdarə Heyəti tərəfindən təsdiq edilmişdir: İCOC Siyasəti və İCOC Bələdçisi**






Rəy mexanizmi üçün Standart Əməliyyatlar Prosedurlarının (SƏP) isə ilkin versiyasi artıq hazırlanıb, gələn il yekunlaşdırılması nəzərdə tutulur.
AzQAC-ın İCOC mütəxəssisi Gürcüstanın Kaxreti şəhərində yeddi günlük "İCOC Artırma" təlimininində iştirak etdi. Təlim İCOC-un fövqəladə hallar zamanı həyata keçirilən proseslərə inteqrasiyasını, həmçinin rəy və şikayət sistemlərinin qurulmasını, davranış dəyişikliyi ilə bağlı kommunikasiya kimi əsas mövzuları əhatə edirdi.
Azərbaycan Qızıl Aypara Cəmiyyəti (AzQAC) icmaların ehtiyaclarını daha yaxşı başa dümək üçün mərkəzi əks əlaqə mexanizmi ilə bağlı müəyyən addımlar atıb. 2023-cü ilin may ayından başlayaraq Beynəlxalq Federasiyanın Potensialın Gücləndirilməsi Fondu (CBF) və Hollandiya Qızıl Xaçının dəstəyi ilə prosses hələ də davam edir. İlkin olaraq mexanizmin üç regional mərkəzdə sınaqdan keçirilməsi nəzərdə tutulub. Uğurlu olduğu təqdirdə bütün bölmələri əhatə edən mərkəzi rəy mexanizmi planlaşdırılır.
Prosessə təlim sessiyaları ilə başlanıldı. Üç regional mərkəzdən 17 könüllü iştirak etdi.
Təlim üç sessiyadan ibarət idi. Birinci sessiyada İCOC prinsiplərinə giriş, əks əlaqə mexanizminin qurulması və idarə olunması, institusionallaşmanın əhəmiyyətindən danışıldı. İkinci sessiya məlumatların toplanması və Kobo toolbox, üçüncü sessiya effektiv ünsiyyət, empatiya və aktiv dinləmə bacarıqları, şifahi olmayan ünsiyyət, əlaqə və inamın yaradılması kimi mövzuları əhatə etmişdir.

Bu il avqust ayında AzQAC icma üzvlərinin məlumat ehtiyaclarına uyğun olaraq mərkəzi əks əlaqə mexanizminin yaradılmasına rəhbərlik edəcək **İCOC Qiymətləndirmə hesabatını** təqdim etdi.

Qiymətləndirmə heabatı və nəticələri Beynəlxalq Federasiyanın rəsmi İCOC xəbər bülletenində vurğulanmış və Britaniya Qızıl Xaç Cəmiyyətinin ev sahibliyi etdiyi Community Engagement Hub saytında dərc edilmişdir.

Nəzərdə tutulmuş geniş kontekstlərə uyğunlaşmaq üçün Hollandiya Qızıl Xaçı komandası, Beynəlxalq Federasiyanın regional işçiləri AzQAC işçiləri və könüllülər ilə sıx əməkdaşlıq edir.

Keçirilən bir sıra onlayn sessiyalardan sonra Hollandiya Qızıl Xaçı və Beynəlxalq Federasiyanın Cənubi Qafqaz Klasterinin Nümayəndə heyəti qurulacaq rəy mexanizminin yerli ehtiyacları qarşılaması məqsədilə Qızıl Aypara Cəmiyyətininə səfər edərək Milli Cəmiyyətin nümayəndələri ilə müzakirələr həyata keçirdi.

Milli Cəmiyyətin rəy mexanizmi üzərində işləyən əsas komandanın, eləcə də mexanizmlə bağlı təcrübələrini, ehtiyaclarını və gözləntilərini bölüşən bir sıra şöbələrdən olan həmkarların iştirakı ilə müzakirələr arzu olunan həllərin müəyyən edilməsi ilə davam etdirildi.

Hər bir seminarın sonunda problemlər və həll yolları, eləcə də hər bir ölkədə mexanizmin inkişafının monitorinqi üçün ölçüləri əks etdirən tələblər və anlayışlar hazırlandı. Müəyyən edilmiş həlləri həyata keçirmək üçün iş oktyabr ayında başladı və hazırda proses İCOC çərçivəsində davam edir.




13-15 dekabr 2023-cü ildə Avropa İttifaqı (Aİ) tərəfindən maliyyələşdirilən və Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası tərəfindən həyata keçirilən "Azərbaycanda icmanın ehtiyacları və yerli imkanlarla vətəndaş cəmiyyəti təşkilatlarının potensialları arasındakı boşluğun aradan qaldırılması" layihəsi çərçivəsində 12 Vətəndaş Cəmiyyəti Təşkilatı (VCT) üçün "Humanitar Fəaliyyət üzrə Oriyentasiya" təlimi keçirilib. Bu təlimdə İcmaların Cəlb Olunması və Cavabdehlik üzrə təqdimatla çıxış edən İCOC nümayəndəsi öz təcrübələrini iştirakçılarla bölüşmüşdür.

# Təchizat

Azərbaycan Qızıl Aypara Cəmiyyəti daxilində logistikanın məqsədi təşkilatın humanitar əməliyyatları üzrə mal, xidmət və məlumat axınının səmərəli və effektiv idarə olunmasını təmin etməkdir. Logistika Milli Cəmiyyətin fövqəladə hallara cavabvermək və icmanın dayanıqlığını artırmaq missiyasını dəstəkləməkdə mühüm rol oynayır.

AzQAC-ın Lökbatan anbarının təmiri artıq başa çatıb və qapalı anbar sahəsi 300 kvadratmetr genişləndirilib. Anbar 2021-ci ilin əvvəllərində 1/3 (600 kvadratmetr) Türk Qızıl Ay tərəfindən təmir edildi. Əlavə təkmilləşdirmələr damda su sızması, döşəmə və divarın zədələnməsi kimi məsələləri həll etdi. Təkmilləşdirmələrə əlavə LED işıqlandırmanın quraşdırılması, çıxış üçün ikinci qapının əlavə edilməsi, divarların rənglənməsi, su izolyasiyası ilə damın hərtərəfli təmiri, su paylayıcı sistemə (boru və kran daxil olmaqla) qoşulma, pəncərələrin dəyişdirilməsi və nərdivan alınması daxildir. Bu səy Bakıda saxlama qabiliyyətini və obyektlərini optimallaşdırmaq məqsədi daşıyır.

Təchizat üzrə məsləhətçi Milli Cəmiyyətin müxtəlif departamentlərini əhatə edən təxminən 10 tenderi uğurla əlaqələndirilmişdir. Satınalma prosedurlarının ilkin versiyası hazırlanmışdır və gələcək satınalma fəaliyyətləri üçün hərtərəfli istinad bələdçisi kimi 2023-cü ildə yekunlaşdırılmışdır.

Dekabr 2022- mart 2023 aylarında CİPS təlimi keçirilmiş, avgust ayında Moskvada İMPACT təlimində iştrak olunmuşdur. Bu təlimlər şöbəyə təchizat mexanizmini inkişaf etdirmək, müqavilələri idarəetmə, tədarükçülərlə düzgün davranış, əsas humanitar prinsiplər və qaydaları başa düşmək və onları Milli Cəmiyyətdə tətbiq etmək baxımından böyük təcrübə qazandırmışdır.

## Digər nailiyyətlər:

1. Satınalma siyasəti və prosedurunun hazırlanması;

2. AzQAC qərargahında server otağının təmirinin uğurla başa çatdırılması;

3. 1C proqramının tətbiqinə başlanılması;

4. 2023-cü ildə Nağd pul və Vauçer layihələri üçün yeni maliyyə xidməti təminatçısı üçün tenderin elan edilməsi;

5. Mövcud maliyyə provayderi olan Azərpoçt ilə tərəfdaşlığın əlavə iki il müddətinə uzadılması ilə bağlı müqavilənin imzalanması.

# İnformasiyanın İdarəedilməsi

**İcmaların Cəlb Olunması və Cavabdehlik Qiymətləndirilməsinin hazırlanması:**

İcmalarlın Cəlb Olunması və Cavabdehlik (İCOC) üzrə əməkdaş ilə sorğuda istifadə olunacaq sualların müəyyənləşdirilməsi, sorğunun metodologiyası və dizayının hazırlanması: sorğu 5 hissədən, təxminən 50 sualdan ibarət olmaqla İngilis və Azərbaycan dilində tərtib olundu.

Kobo Toolbox vasitəsi ilə mobil data toplamanı həyata keçirmək üçün bütün suallar Koboda yığıldı.

Sorğunu həyata keçirəcək könüllülərə təlim keçirildi. Təlimdə 3 regiondan (Bakı, Sumqayıt, İsmayıllı) 17 könüllü iştirak etdi. Könüllülərə Datanın toplanması, Mobil Data toplama üsulları, bu zaman Kobo Toolboxdan istifadə qaydaları izah olundu. Sorğu toplanan zaman yaranan texniki problemlərdə dəstək göstərildi.

Qiymətləndirməni daha düzgün aparmaq üçün 3 regionda (Bakı, Sumqayıt, İsmayıllı) Fokus Qrup müzakirələr həyata keçirildi və bu zaman öncədən hazırlanmış suallar ətrafında məlumatlar toplandı. Ümumilikdə 4 Fokus Qrup müzakirəsi keçirildi. 62 nəfəri əhatə edən müzakirələrdən əldə olunan məlumatlar qiymətləndirmədə istifadə olundu.

Sorğuda iştirak edən 250 nəfərdən və fokus qrup müzakirələrdən toplanmış məlumatların təhlil olundu və Power BI proqramı vasitəsilə vizuallaşdırıldı. Vizuallaşdirma altı hissədən ibarət idi: Demoqrafik baxış, AzQAC haqqında ümumi məlumat, İnformasiya ehtiyacları, Kommunikasiya Kanalları, İcmanın quruluşu və sosial uyum, İştirak və rəy, Həssas rəylər. Dashboard analiz edildi, iki dildə həm Azərbaycan həm də İngilis dilində Qiymətləndirmə hesabatı tərtib edilib İCOC əməkdaşına yayımlanması üçün təhvil verildi.






# İnformasiya Texnologiyaları

## Elektrik problemləri:

Elektrik problemləri AzQAC-ın şəbəkə davamlılığının əsas problemlərindən biri idi. Bu problemin həlli üçün ilkin olaraq server otağında bütün kabellər yenilənib paralel olaraq elektrik yuvaları dəyişdirilib və baş verəcək gərginlik dəyişikliklərindən qorunmaq üçün server avadanlıqları 6kv Tower UPS sisteminə quraşdırılıb.

## Server otağının ümumi təmiri:

Server avadanlıqlarının işləmə müddətinin uzadılması üçün avadanlıqların saxlama şəraiti yenilənmişdir. Buraya server otağında döşəmə, tavan və pəncərələrin təmiri əlavə olaraq saxlama şəraitinin yaxşılaşdırılması üçün uyğun soyutma sistemi quraşdırılmışdır.

## Microsoft Outlook inteqrasiyası:

Azərbaycan Qızıl Aypara Cəmiyyətində Microsoft Outlook E-Mail “Redcrescent.org.az” domeni tətbiq olunmuşdur və domenin altında Milli Cəmiyyətin əsas şöbələri və regionları inteqrasiya olunmuşdur. Bu E-mail ünvanı istifadəçilərin komunikasiyasını daha da sürətləndirir və göndərilən informasiyanın təhlükəsizliyini tam təmin edir. Eyni zamanda digər kənar proqramlar arasında keçid etmək ehtiyacını aradan qaldırır və iş səmərəliyni artırır. Hal-hazırda müəyyən lahiyələr çərçivəsində E-mail inteqrasiya olunmuş şöbələrdə Microsoft Outlook və Teams üzrə təlimlər keçirilir. Son təlimimiz AzQAC-ın Nizami rayon bölməsində keçirilmişdir.

## AzQAC-ın veb səhifəsinin yenilənməsi və Verilənlər bazası:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinin veb səhifəsi dövrün tələblərini uyğun yenilənmişdir. Eyni zamanda verilənlər bazası hostinqə qeydiyyatı aparılmışdır.

## İnternet traffikinin inkişafı:

Azərbaycan Qızıl Aypara Cəmiyyətinə bütün otaqları əhatə edən yeni nəsil AP(Acsess Point) cihazları quraşdırılıb bu cihazlar gələn internet sürətini tam şəkildə ötürmək üçün və eyni şəkildə internet traffikini stabilləşdirməyi nəzərdə tutur.

## Şəbəkə təhlükəsizliyinin təmin olunması:

Azərbaycan Qızıl Aypara Cəmiyyətində server otağında kiber təhlükəsizlik önləmləri alınıb, internet trafikini aşağı salan quraşdırılma topologiyası dəyişərək daha düzgün və traffiki sürətlindərəcək şəkildə yenidən quraşdırılıb və bu sahədə həm də şəbəkə təhlükəsizliyi də bərpa olunub.

## İnternet sürətinin artırılması:

Azərbaycan Qızıl Aypara Cəmiyyətində internet sürəti dövrün tələblərinə uyğunlaşdırılıb ötən aylarda internet sürət 10-15 Mbsn hesablanarkən bu rəqəm hal-hazırda 90-100 Mbsn qədər qaldırılıb və bu da ilk növbədə informasiya ötürülməsini tezləşməsinə, iş səmərəliliyinin artmasına gətirib çıxarır. Eyni zamanda internet üçün ödənilən vəsait yeni bağlanan razılaşma əsasında 3 dəfə daha da ucuzlaşıb.

## Gündəlik İT dəstək:

Hesabat ilində Azərbaycan Qızıl Aypara Cəmiyyətində bütün şöbələrə texniki dəstək olunmuş və əməkdaşların hər bir texniki problemləri tam şəkildə öz həllini tapmışdır.
İl boyu bütün avadanlıqlar daimi nəzarət altında saxlanılır və yaranan problemlər sürətli şəkildə aradan qaldırılır.




Azerbaijan Red Crescent Society


PAŞA
Bank
Coca-Cola
pmd







**Azərbaycan Qızıl Aypara Cəmiyyətinin əvvəlcədən icazəsi olmadan bu nəşrin hər hansı bir hissəsinə istinad edilə, köçürülə və başqa dillərə tərcümə edilə bilməz.**

**Tərtib edib: Şöhrət Nağıyeva**
İnformasiyanın İdarəedilməsi üzrə əməkdaş

